https://doi.org/10.59849/3006-2403.2023.9.117
UOT 82-1. 512. 162

*Mətanət İkram qızı Əliyeva, Röya Asif qızı Həsənova,*
*Könül Vəkil qızı İsayeva*
*AMEA Gəncə Bölməsi, Diyarşünaslıq İnstitutu*
*Gəncə ş. H.Əliyev pr., 419*
*E-mail: metanet_aliyeva_2016@mail.ru*

# ŞEYX NİZAMİ GƏNCƏVİNİN GƏNCƏ ŞƏHƏRİNDƏKİ SİMVOLİK EVİNİN TARİXİ

*Məqalədə dahi söz ustadı və mütəfəkkiri, Şeyxlər şeyxi Nizami Gəncəvinin "Nizami" bədii filmi üçün dekorasiya məqsədi ilə tikilmiş evi haqqında, sonradan bu evin dahi Nizami Gəncəvinin simvolik evi kimi qəbul edilməsi, evin Gəncə şəhər Mədəniyyət İdarəsi tərəfindən "Nizami Gəncəvinin ev muzeyi" statusu alması, muzeyin fəaliyyəti və sonrakı taleyi ilə bağlı məlumat verilmişdir. Eləcə də "Nizami" bədii filminin dahi mütəfəkkir və söz ustadının ilahi siqlətini tam ifadə etmədiyi mütəxəssislər tərəfindən etiraf edilmişdir.*

*Açar sözlər:* Gəncə, Nizami Gəncəvi, şeyx, muzey, film

Gəncə, Azərbaycanın ən qədim müqəddəs məkanı. Gəncəni müqəddəs adlandırmaqda düşünürəm ki, heç bir qəbahətə yol vermirəm. Çünki dünyanın müqəddəs adlandırılan say-seçmə bir neçə məkanı var, orada cəmiyyət üçün önəmli işlər görmüş, Allahın özü ilə bəşər arasında irtibat funksiyasını həyata keçirmək üçün milyonların içindən seçdiyi xüsusi seçilmişlərdən olan ali, yüksək mövqeli insanlar yaşadıqları məkana müqəddəslik statusu gətirirlər, Məkkə, Mədinə, Nəcəf, Məşhəd şəhərləri kimi. Gəncə də müqəddəslik funksiyasını ləyaqətlə həyata keçirən məkanlardan biridir. Əldə olan tarixi məlumatlar onu deməyə əsas verir ki, Gəncə İslamın ilk intişar tapdığı dövrlərdən ona biət edən məkan olmuşdur. Bunu hələ VII əsrdə yaşamış, dini iman və əqidəsi ilə xalqın dərin hörmət və etibarını qazanmış Comərd Qəssab, beşinci imam Məhəmməd Baqirin oğlu mövlana İbrahimin Gəncədə yaşaması, eləcə də tarixi məxəzlərdə Gəncənin İslam şəhəri adlandırılması sübut edir [2, s. 13]. Və bir də Şeyxlər şeyxi, ulu Nizami Gəncəvinin Gəncədə yaşayıb yaratması əbədiyyən Gəncə şəhərinə şərəf və fəxarət hissi bəxş etmişdir. Axı dahi söz ustadı, bütün dövrlərin mütəfəkkir şairi Nizami Gəncəvi sağlığında geniş zəkası, mütərəqqi dünyagörüşü, biliyi ilə təkcə yaşadığı dövrü deyil, əsrlər sonrakı insanlığa mənəvi cəhətdən zəngin, humanizm, vətənpərvərlik, insanpərvərlik kimi yüksək mənəvi ideallar aşılamaqla bütün bəşəriyyətə xidmət edir. İndi isə Şeyxlər şeyxinin doğulub boya-başa çatdığı, dünyanın bütün xəzinələrindən üstün tutduğu doğma Gəncə şəhəri haqqında. Şair Gəncədə anadan olmuş, ərsəyə çatmış, elə Gəncədən də bütün bəşəriyyətə nur saçmışdır. Ancaq hansı Gəncə, axı XX əsrin başlanğıcından Gəncə şəhərinin də daxil olduğu çox böyük ərazilərdə aparılmış arxeoloji qazıntılar, habelə tarixi məxəzlərin məlumatları sanki adamı çaşdırır, şəhərin koordinatlarında müəyyən uyğunsuzluqlar, yanlışlıqlar ortaya çıxır.

Aparılmış arxeoloji qazıntılar və elmi məlumatlar Gəncə şəhərinin ən azı beş dəfə yerini dəyişdiyini bildirir. İlkin Gəncə səhəri əhali arasında Qala yeri adı ilə adlandırılan Gəncəçayın sol sahilində, Zurnabad kəndinin 5 km-də Gədəmiş kəndi yaxınlığındakı ərazi hesab olunur. Tarixi mənbələrdən məlumdur ki, e.ə. VI əsrdə Əhəməni hökmdarı II Kir Gəncə Qalası yaxınlığında Tomris tərəfindən məğlub edilmişdir. Qədim Gəncə e.ə. VI əsrdən eramızın V əsrinədək qeyd olunan ərazidə məskunlaşmışdır.

Hunlarla sasanilərin müharibələri və 427-ci ildə baş verən zəlzələ nəticəsində qədim Gəncə şəhəri dağılmış, ikinci dəfə şəhər Qızıl Qaya ərazisində, indiki Gəncə şəhərinin 9-10 km şimalında salınmışdı. Yerli sakinlər buranı indi də Köhnə Gəncə və ya Qonja adlandırırlar ki, bu şəhər də VII əsrdə ərəb istilaçıları tərəfindən dağılmışdır.

Bu dağıntılardan sonra Gəncə indiki Samux rayonu ərazisində yerləşən Şəhərburnu adlanan ərazidə salınmışdır. Hal-hazırda bu yer Gəncənin üçüncü dəfə məskunlaşdığı ərazi hesab olunur.

Təbii fəlakət nəticəsində dağılmış şəhər dördüncü dəfə indiki İmamzadə ərazisinin yerləşdiyi Xaraba yer, Şıx düzü adlanan ərazidə VII-XVI əsrlərdə mövcud olmuşdur.

1139-cu il zəlzələsi, 1235-ci il monqol hücumları şəhəri yerləyeksan etsə də, şəhər yenidən həmin ərazidə bərpa edilmişdir.

Nəhayət, beşinci dəfə Gəncə şəhəri I Şah Abbas tərəfindən 1588-ci ildə Səfəvi-Osmanlı müharibələri zamanı Osmanlı sərkərdəsi Fərhad Paşa tərəfindən tikdirilmiş indiki Gəncə qalası ərazisinə köçürülmüşdür.

Dünya ədəbiyyatının korifeylərindən olan, Azərbaycan xalqının dahi şairi və mütəfəkkiri Nizami Gəncəvi də məhz şərti olaraq Gəncənin dördüncü yerdəyişməsi adlandırılan ərazisində anadan olmuş, yaşayıb yaratmışdır. Bu böyük şəxsiyyətin dəfn olunduğu məqbərəsi indiki Gəncə şəhərinin mərkəzindən təqribən 7 km şərqdə, “Şıx düzü” deyilən yerdə, Gəncə-Bakı avtomobil yolunun üstündədir. Dahi Nizaminin dəfn olunduğu bu ərazi VII-XVII yüzilliklərdə mövcud olmuş köhnə Gəncənin cənub-şərqinin 3 km-də yerləşir. Bura vaxtilə qəbiristanlıq olmuş, təsadüfi deyildir ki, Şeyxlər şeyxinin valideynlərinin məzarları da buradadır.

İstər bir gün yaşa, istərsə yüz il,
Bu nurlu eyvandan köçəcəksən bil.
Yaxşısı budur ki, könlünü şad et,
O böyük Allahı şadlıqla yad et! [9].

Bütün bəşəriyyətin bu böyük şəxsiyyətə sahiblənmək istədiyi bir dönəmdə Ümummilli Lider Heydər Əliyev dünyaya belə bir mesaj verdi: “Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə - Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər” [3, s. 29]. Məhz, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 22 sentyabr 1975-ci və 4 yanvar 1978-ci illərdə “Nizami Gəncəvi məqbərəsinin qorunması”, dahi söz ustadı Nizami Gəncəvinin ümumbəşəri dəyərini əsas tutaraq, Nizami Gəncəvi irsinin dünyada tanıdılması, təbliğ edilməsi ilə əlaqədar 6 yanvar 1979-cu ildə “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsi, tədqiqi, təbliği və nəşri işinin daha da yaxşılaşdırılması haqqında” [9, s. 116] qərar imzalamışdır.

Nizami Gəncəvinin Sovet imperiyasının milli ideoloji mətləbləri olduqca həssaslıqla idarə etdiyi bir dövrdə yuvarlaq olmayan yubileyinin keçirilməsi Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. 28 iyul 1981-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi haqqında qərar imzalamışdır. İmzaladığı qərar və göstərişlər dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi haqqında olduqca mühüm tədbirlərin görülməsinə, genişmiqyaslı tədqiqatlar aparılmasına, ən əsası isə milli düşüncəli yeni nəsil Azərbaycanlı nizamişünas alimlərin yetişməsinə səbəb oldu [7].

Azərbaycanın tarix və mədəniyyət abidələrinin, xüsusilə şəhərlərinin geniş şəkildə tədqiqi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. "Tariximizin hər səhifəsi bizim üçün əzizdir", "Xalq gərək daim öz kökünü xatırlasın"- kimi aforizmlərə çevrilmiş qiymətli kəlamların milli-mənəvi dəyərlər baxımından böyük əhəmiyyəti vardır. Ulu Öndərin imperativ (konkret davranış qaydası, başqa seçim imkanı verilməyən təkidlə tələb) şəkildə dediyi: "Azərbaycanın qədim şəhərlərinin tarixi öyrənilməlidir" – fikri tarixçiləri ruhlandırdı, onların qarşısında böyük məsuliyyətlər qoydu. Məhz bu illərdən başlayaraq qədim Gəncə şəhəri ərazisində aparılan kəşfiyyat xarakterli arxeoloji ekspedisiyalar elmi fundamental tədqiqatlar səviyyəsində aparılmağa başladı. 1981-ci ildə qədim Gəncə ərazisində tarixçi-alim Rəfail Əhmədovun rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar nəticəsində Nizami dövrü Gəncəsi aşkar edildi, tapılmış tarixi materialların zənginliyi həmin dövrdə Gəncənin İntibah dövrü olduğunu deməyə əsas verdi.

Ulu Öndər Heydər Əliyevin 1981-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş "Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsini, bərpasını və onlardan istifadə olunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərara əsasən Azərbaycanın bir çox qədim şəhərləri kimi Gəncə şəhərində XII əsr qədim Gəncə ərazisi yeri tarixi mədəniyyət qoruğuna çevrildi. Akademik Rafael Əhmədovun Gəncə arxeoloji qrupu tərəfindən tapılmış zəngin eksponatların bir hissəsi Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verildi.

Məhz həmin illərdən başlayaraq Azərbaycanın bütün ziyalıları fəaliyyətlərini Nizami Gəncəvi akkordları ilə köklədilər, şairlər, dramaturqlar, bəstəkarlar, heykəltəraşlar, bir sözlə, incəsənətlə bağlı ziyalılar Nizami haqqında əsərlər yazmağa başladılar. Təsadüfi deyildir ki, Azərbaycan kinematoqrafları da Nizami Gəncəvi işığına rəng qatmağı özlərinin mənəvi vətəndaşlıq borcu olaraq qəbul etdilər. Müəllifləri İsa Hüseynov, Eldar Quliyev, rejissor Eldar Quliyev, operator Arif Nərimanbəyov, bəstəkar Qara Qarayev olan "Nizami" tammetrajlı 2 seriyalı rəngli bədii filmi 1982-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" və "Mosfilm" kinostudiyaları tərəfindən çəkilmişdir. Filmə ilk baxış tarixi 1982-ci il 30 iyunda olmuşdur. Baş rolda SSRİ xalq artisi Müslüm Maqomayevin çəkildiyi bu film o Film-pritça dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuşdur [4, s. 142]. "Filmdə şairin obrazı, o uzaq illərdə Azərbaycan xalqının siyasi və sosial həyatının ab-havası, insan münasibələrinin mürəkkəb dünyası öz əksini tapmışdır. Bu film insanın tarixdə rolu, onun adamlar qarşısında borcu haqqında düşüncələrdir. Nizaminin mənəvi idealı ilə reallıq arasında uyğunsuzluq şairin insana və ədalətə inamını qıra bilməmişdir" [11].

"Nizami" bədii filminin müəyyən kadrları şairin doğma şəhəri Gəncədə lentə alınmışdır. Azərbaycanın o dövrün (XII əsr) ən qabaqcıl ölkələrindən biri olması mədəniyyətinin, elminin, arxitekturasının, incəsənətinin və ədəbiyyatının çiçəklənməsi ilə səciyyələnmişdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Gəncə şəhəri Nizami Gəncəvinin yaşadığı dövrlərdə, yəni XII-XIII əsrlərdə dünyanın böyük və Ön Asiyanın ən inkişaf etmiş şəhərləri sırasında yer almışdır. Paytaxt şəhərlərindən biri olan Gəncədə Sultan sarayı, ayrı-ayrı hökmdarlara, ruhanilərə, dövlət məmurlarına məxsus saraylar, imarətlər həmçinin məscid, mədrəsə, hamamlar və başqa binalar tikilmişdi. Təsadüfi deyildir ki, Nizami Gəncəvi haqqında ilk kitab yazarlarından biri olan M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" əsərində qeyd etdiyi kimi "XII yüzil böyük Səlcuq İmperatorluğunun çöküş dövrünə rastlar... Gəncə ilə Şamaxı bu dövrdə Yaxın Doğunun birər kültür mərkəzi idilər" [12, s. 43]. Təsadüfi deyildir ki, böyük şərqşünas alim Yevgeni Bertels Nizami Gəncəvinin yüksək bilik və savadından bəhs edərkən onu yetişdirən Gəncə mühitinin də son dərəcə yüksək inkişafından bəhs etmişdir: "Səlcuqlar zamanının memarları kimi həm müsəlman aləminin ənənələrini, həm də xristian Qafqazının bədii sərvətini birləşdirmiş olan bu müstəsna talant, yalnız o

zamanın şəhəri, daha doğrusu, Zaqafqaziya şəhəri şəraitində tərəqqi edə bilərdi. Epoxanın bütün ziddiyyəti onun əsərlərində birləşir. O, Nizami cəsarətli qələmi ilə bizə o zamanın heç vaxt solmayacaq boyalarla çəkilmiş lövhələrini göstərir" [1, s. 16].

Nizami Gəncəvi dövrünün Gəncə şəhərinin quruluşu, möhtəşəm binaları haqqında tamaşaçıda real təsəvvür yaratmaq məqsədilə filmin çəkilişləri o vaxtkı SSRİ-nin bir çox şəhərlərində - Şamaxı, Gəncə, Bakı, Moskva (pavilyon çəkilişləri), Ağcaqumda çəkilmişdir.

Nizami Gəncəvinin həyatından, yaradıcılığından bəhs edən "Nizami" bədii filminin çəkilişi üçün 1982-ci ildə Gəncədə, Bala Bağmanda, İsmət Qayıbov küçəsində, üçüncü döngə, ev 10 ünvanında memar Fərman İmamquliyevin layihəsi əsasında "Nizaminin evi" adlanan tikili - Nizami Gəncəvinin simvolik ev maketi pavilyon məqsədilə inşa edilmişdir. Gəncə şəhərinin baş memarı Fərman İmamquliyev şairin evini, onun yaşadığı dövrə uyğun, XII əsrə aid memarlıq üslubunda inşa etmişdir.

Məlumdur ki, Şərqin inkişaf etmiş şəhərləri karvan yollarının əsas istiqamətləri üzərində inşa edilirdi. Gəncənin orta əsr səyyah və coğrafiyaşünasların təsvirlərinə əsasən mərkəzdə hakim feodalın möhkəm divarlarla əhatə olunmuş qala (içqala) - sitadel, onun ətrafında böyük yaşayış yerlərində inzibati və ictimai binaların yerləşdiyi şəhristan və ardınca sadə sənətkarlar və ticarət adamlarının məskunlaşdığı rabatlar yerləşirdi. Bir qayda olaraq şəhərlər qalalar və xəndəklərlə əhatə olunurdu [6, s.9]. Çox güman ki, Nizami Gəncəvi də ailəsi ilə birlikdə şəhərin şəhristan ərazisində yaşamışdır. Dövrün memarlıq quruluşunu dəqiqliklə öyrənən Fərman İmamquliyev "Gəncə hörgüsü" elementlərindən istifadə edərək Nizami Gəncəvinin ev-modelini yaratmışdır. Sözsüz ki, burada Fərman İmamquliyev Şeyxin hər cür dünya dəbdəbəsindən uzaq, sadə yaşayış tərzi ilə həmşəhərlilərindən seçilməyən təvazökar ev modeli quruluşu yaratmışdır. Bu haqda professor Sadıq Şükürov yazırdı: "XI əsrdən XX əsrə gəlib çıxan və 1982-ci ildə Gəncə çayı sahilinə köçürülən bu evin öz ilkinə oxşayıb-oxşamadığını söyləmək, mübahisə aparmaq fikrində deyilik. Lakin tarixdə bir şey məlumdur ki, Gəncə şəhəri təbii, ictimai fəlakətlər zamanı bir neçə dəfə yerini dəyişsə də, namus, qeyrət mücəssəməsi olan gəncəlilər "Şeyxlər şeyxinin" ocağını, evinin formasını, çox güman ki, itib-batmağa qoymamışlar" [13, s. 54-55].

Nizami Gəncəvinin film çəkilişləri üçün dekorasiya olaraq nəzərdə tutulmu simvolik evi 3 otaqdan ibarət olub kürsülüdür (mərtəbəyarım). Bina qırmızı kərpicdən tikilib. Evin hasarı qırmızı kərpic və çay daşlarındandır. Tikilinin şəbəkəli pəncərələri və taxta qapıları var. Bu evi inşa edəndə müxtəlif ərazilərdə köhnə binaları söküb, onların iri kərpiclərindən istifadə ediblər ki, bina XII əsrə aid tikililərə bənzəsin. Tikilinin həyətində "emalatxana", "su quyusu", "təndir", "at tövləsi" kimi yardımçı dekorasiyalar da mövcud olub.

Filmin əhatə etdiyi dövrü tam əks etdirməsi üçün Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyinin fondundan qədim Gəncə ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilmiş sənətkarlıq nümunələri - dulusçuluq qabları, mis əşyalar, xalça və xalça məmulatları, çıraqlar, şamdanlar və s. əşyalar gətirilmişdir [10]. Filmin dekorasiyası dövrə uyğun uğurlu alınmışdır. Filmin çəkilişləri başa çatdıqdan sonra gəncəlilər "Şeyxin evi"ni sökməyə razılıq verməmiş, əhali arasında "Nizaminin evi" kimi tanınan tikili 1984-cü ildən Gəncə şəhər Mədəniyyət İdarəsinin Strukturunda Nizami Gəncəvi Xatirə Ev Muzeyi kimi fəaliyyətə başlamışdır. Lakin zaman keçdikcə film çəkilişləri üçün nəzərdə tutulmuş həmin bina iqlimin sərt sınaqlarına qarşı dayanış gətirə bilməmiş, dağılmaq təhlükəsi ilə üzləşmişdir. Bu səbəbdən Nizaminin ev-muzeyinin eksponatları şəhərin Təbriz küçəsində yerləşən Qızılhacılı məscidinə köçürülmüş və 2004-cü ilin yanvar ayının 1-dən 2014-cü ilə kimi "Qızıl Hacılı" Tarix-Memarlıq abidəsində fəaliyyətini davam etdirmişdir ( Hazırda bu məsciddə Gəncə Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 22 saylı filiali yerləşir).

2013-cü ildə "Heydər Əliyev Fondu"nun dəstəyi ilə Nizami Gəncəvi Məqbərəsinin ərazisində müasir üslubda 4 mərtəbəli Nizami Gəncəvi Muzeyi inşa edilmişdir. 2014-cü ilin yanvar ayının 21-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Gəncə şəhərinə növbəti səfəri zamanı muzeyin açılış mərasimində iştirak etmişdir. Nizami Gəncəvi ev muzeyinin bütün eksponatları Qızıl Hacılı məscidindən Nizami Gəncəvi Muzeyinə gətirilmişdir.

Nizami Gəncəvi Xatirə ev Muzeyində 542 eksponat var. Bunlardan 418 ekspozisiyada nümayiş etdirilir. Muzeyin ən qədim eksponatı Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən gətirilmiş orijinal "Xəmsə" əl yazmaları və Qurani Kərimdən nümunələrdir.

"Nizami" filminin taleyinə gəldikdə bugünə kimi ekranlarda nümayiş etdirilən bu film mütəxəssislərin fikrincə, Nizami kimi dühanı anlamaq üçün ən azı onun ruhu ilə təmasda olmaq, Nizami zərrəsindən heç olmazsa bir damlaya sahib olmaq lazımdır ki, bəşərin fövqündə duran bu böyük ilahi şəxiyyəti anlamaq mümkün olsun. Bununla əlaqədar Azərbaycan Kinematoqrafçılar İttifaqının kaibi, kino-rejissor Əlisa Cabbarov filmin ssenari müəllifi İsa Hüseynovun həm də "Nəsimi" filminin də ssenari müəllifi olduğunu bildirməklə hər iki filmi müqayisə edərək deyir: "Qəribə bir nüans var. İsa Hüseynov "Məhşər"i yazanda ola bilsin ki, Nəsiminin ana dilində olan əsərlərini oxuyub, təsirlənib. Nəsiminin yaradıcılığını, sufiliyi, hürufiliyi dərindən araşdırmış insanlarla söhbət edib, özü üçün bir çox məqamları dəqiqləşdirib. Özündə də Nəsimidən bir zərrə olub, oturub yaza bilib. Nizami isə çox çətindir. İsa müəllim çox güman ki, Nizamini sətri tərcümədə oxuyub. Tərcümə vasitəsi ilə onun ruhu ilə kontaktlara girmək mümkün deyil. Bir filmlə Nizami haqqında hər şeyi demək mümkün deyil" [5].

Bəli, Nizami Gəncəvi Allahın yaratdığı elə fövqəlbəşər bir dühadır ki, onu anlamaq, ilahi kəlamlarını dərk etmək insan xilqətinin kamillik dərəcəsini üstələyir. Gəncədən günəş kimi doğan Nizami Gəncəvi hələ bundan belə neçə-neçə nəsillərin çözməyə, anlamağa çalışacağı, türk insanının "bəngü" – müqəddəs adlandırdığı sözün hikmətini açmaqda müsəlləh olacağı bir İlahi möcüzəsidir.

## ƏDƏBİYYAT


1. Bertels Y. Böyük Azərbaycan şairi Nizami. Bakı: Təhsil - 2017.
2. Cəfərzadə İ. Qədim Gəncənin tarixi-axeoloji oçerki. Bakı - 1947.
3. Hacıyev E. Heydər Əliyev və Nizami Gəncəvi dühası. "Heydər Əliyev və dahi Azərbaycan şairi Nizami Gəncəvi" elmi praktik konfransın materialları. Gəncə - 2023.
4. Qasımova A. Yeniyetmələrin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi. Bakı, Nurlan - 2006.
5. QAYNARİNFO.Az. 30.06.2022.
6. Məmmədova G., Məmmədova Z. Orta əsrlər memarlığı. II cild. Bakı - 2013.
7. Muxtarov Ə. 28 iyul Ulu Öndərin dahi Azərbaycan şairi Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı qərarın verildiyi gündür. https://science.gov.az/az/news/open/25908.
8. Muxtarov Ə. Azərbaycan nizamişünaslığının inkişaf mərhələləri: Ulu öndər Heydər Əliyevdən - möhtərəm prezidentimiz İlham Əliyevə. AMEA Gəncə Bölməsi. "Nizamişünaslıq" elmi əsərlər jurnalı. № 8. Gəncə - 2023.
9. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı - 1982.
10. Nizami Gəncəvi adına Gəncə Tarix-Diyarşünaslıq Muzeyi – 80. Gəncə - 2004.
11. Nizami (film) – Wikipedia. https://az.m.wikipedia.orq > wiki.
12. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Təknur - 2008.
13. Şükürov S. Gəncənin tarixi abidələrindən. Gəncə - 1998.

УДК 82-1. 512. 162

*М.И.Алиева, Р.А.Гасанова, К.В.Исаева*
*Гянджинский филиал Института Краеведения НАНА*

ИСТОРИЯ СИМВОЛИЧЕСКОГО ДОМА ШЕЙХА НИЗАМИ ГЯНДЖЕВИ
В ГОРОДЕ ГЯНДЖА
*РЕЗЮМЕ*

*Ключевые слова*: Гянджа, Низами Гянджеви, шейх, музей, фильм

В статье рассказывается о доме Низами Гянджеви, гениального мастера слова и мыслителя, шейха шейхов, который был построен с целью декораций к художественному фильму «Низами», а впоследствии этот дом был принят как символический дом гения Низами Гянджеви, а дом получил от Управления культуры города Гянджи статус «дома-музея Низами Гянджеви», была дана информация о деятельности музея и его дальнейшей судьбе. Эксперты также признают, что художественный фильм «Низами» не в полной мере выражает божественный характер гениального мыслителя и мастера слова.

UDC 82-1. 512. 162

*M.I.Aliyeva, R.A.Hasanova, K.V.Isayeva*
*ANAS Ganja Branch Institute of Country Studies*

THE HISTORY OF THE SYMBOLIC HOUSE OF SHEIKH NIZAMI GANJAVI
IN THE CITY OF GANJA
*SUMMARY*

*Key words:* Ganja, Nizami Ganjavi, sheikh, museum, film

The article talks about the house of Nizami Ganjavi, the genius master of words and thinker, Sheiklar Sheikh Nizami Ganjavi, which was built for the purpose of scenery for the feature film "Nizami", later this house was accepted as the symbolic house of the genius Nizami Ganjavi, and the house received the status of "Nizami Ganjavi's house museum" by the Ganja City Culture Department. , information was given about the museum's activities and future fate. It is also acknowledged by experts that the feature film "Nizami" does not fully express the divine character of the genius thinker and master of words.

***Daxil oldu: 15.10.2023-cü il***